TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ TƏBLİĞİ: ARAŞDIRMA, TƏKLİF VƏ TÖVSİYƏLƏR

MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin "Azərbaycanda tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği: mövcud vəziyyətin monitorinqi və qarşıda duran vəzifələr" layihəsi çərçivəsində

Prof. Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli,
Arzu Soltan, Rəşad İbrahimov, Albina Rzayeva

BAKI 2013

Layihə Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası
tərəfindən maliyyələşib

Müstəqillik dövründə Azərbaycan dövləti tərəfindən ölkəmizdə mədəni irsin qorunmasına, öyrənilməsinə və təbliğinə qayğının və dəstəyin durmadan artdığı hər kəsə yaxşı bəllidir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin bu sahəyə olan diqqət və qayğısı xüsusi qeyd olunmalıdır. Məsələn, artıq bir neçə ildir ki, ölkə prezidenti arxeoloji tədqiqatlar üçün büdcədə nəzərdə tutulduğundan əlavə olaraq milyonlarla manat vəsait ayırır. Göytəpə neolit dövr abidəsinin konservasiyası üçün də prezident fərmanı ilə vəsait ayrılıb. Heydər Əliyev Fondunun, şəxsən ölkənin birinci xanımı Mehriban Əliyevanın bir çox mədəni irs layihələrinin təşəbbüsçüsü və himayəçisi olduğunu da minnətdarlıq hissi ilə qeyd etmək lazımdır.

Bununla belə yerlərdə mədəni irs abidələrimizin əhəmiyyəti hələ ki, yetərincə başa düşülmür, dövlət tərəfindən mühafizə olunmalarına rəğmən dağıdılır, korlanır, zibillənir və s. Əlbəttə, bu cür xoşagəlməz hallar hər şeydən öncə, əhalinin böyük bir qisminin məlumatsızlığı, ictimai məsuliyyətin olmaması və yerlərdə lazımi maarifləndirmə işlərinin aparılmaması ilə bağlıdır. Məsələn, XX əsrin 20-ci illərində ermənilər şayiə yaymışdılar ki, Azərbaycan ərazisində geniş yayılmış daş-qoç abidələrinin baş hissəsində qızıl var. Yerli sakinlər də bu cür şaiyələrə uyaraq Lənkəran, Qarabağ, Borçalı, Şamaxı, Naxçıvan və digər bölgələrdə qarşılarına çıxan əksər daş-qoç abidələrinin başlarını qıraraq guya qızıl tapmaq ümidində olmuşlar.

Kütləvi qızıl axtarışı kurqanlar, türbələrin günbəzləri, qalalar və s. yerlərdə də intensiv hal alıb. Müşahidələr göstərir ki, bu cür hallara qarşı aidiyyatı orqanlar, o cümlədən hüquq-mühafizə orqanlarının verdiyi sərt reaksiya da hər zaman effektiv olmur. Yerli sakinlər isə, belə məlumatları əksər hallarda gizlədirlər. Əgər hələ də bir çox yerlərdə arxeoloji qazıntı sahələri arxeoloqlar gedəndən sonra yerli əhalinin zibil tulladığı yerə çevrilirsə, əgər xatirə abidələrimizdə mal-heyvan kölgələnirsə, tarixi tikililərin divarları korlanırsa, əgər gələn turistə orada "hər hansı bir unikal abidənin olmadığını" vurğulayıb istiqamət dəyişdirilirsə, onda yerlərdə maarifləndirmə işinin aparılmasının aktuallığı və əhəmiyyəti anlaşılar. Belə olan halda, nə etməli?

Təbiidir ki, mədəni irsi qorumaq məqsədilə ictimai fəallığı və məsuliyyəti artırmaq üçün ictimai birliklərin də üzərinə böyük iş düşür. Əgər mədəni irslə məşğul olan mütəxəssislər yerli sakinlərlə müvafiq iş aparsalar, bölgələrdə abidələrin qorunmasına və onların təbliğinə insanları inandırsalar və səfərbər etsələr, bu, gələcək nəsillərə nəinki dövlətin, eləcə də hər birimizin layiqli töhfəsi olar.

Bunları nəzərə alaraq, MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi olaraq biz "Azərbaycanda tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği: mövcud vəziyyətin monitorinqi və qarşıda duran vəzifələr" layihəsini hazırladıq. Layihəmiz Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən bəyənildi və biz 2013-cü il may ayının 1-dən etibarən həmin layihəni həyata keçirməyə başladıq.

Layihənin məqsədi mədəni irsimizə aidiyyatı qurumlar, o cümlədən yerli təşkilatlar və geniş ictimaiyyətin münasibəti sahəsindəki problemləri ilk dəfə bir ictimai birliyin səyləri nəticəsində üzə çıxarmaq, mütəxəssis araşdırmaları, təklif və tövsiyələri, keçirilən ictimai müzakirələr, çəkilən film vasitəsilə şəhər və kənd sakinləri, abidələrə yaxınlıqda yaşayan insanları maarifləndirmək, bununla da mədəni irsimizin mühafizəsi və təbliği sahəsində görülən işləri stimullaşdırmaqdır.

Bu məqsədə çatmaq üçün layihə qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- Azərbaycanın 2 bölgəsində - Şirvan və Gəncə-Qazax bölgələrində mədəni irsə ictimai münasibəti araşdırmaq;
- Bölgələrdə əhalini maarifləndirməyə xidmət edəcək ictimai müzakirələr keçirmək.

Araşdırmalar mütəxəssislərin seçimi əsasında müəyyən edilmiş hər bölgənin 3 mədəni irs abidəsində - toplam 6 abidədə aparıldı. Həmin abidələr haqqında yerli əhalinin tarixi bilgilərindən başlayaraq, qorunmasına, ictimai məsuliyyətin sorğulanmasına qədər araşdırıldı. Bu məqsədlə sorğu-anketlərdən istifadə olunub. Yekunda hər bölgə üçün ayrıca araşdırma sənədi (raport) hazırlanıb və ümumi vəziyyəti göstərən, təklif və tövsiyyələri də əhatə edən 30 səhifəlik "Tarix və

mədəniyyət abidələrinin mühafizəsi və təbliği: araşdırma, təklif və tövsiyyələr" kitabçası, yəni bu kitabça nəşrə təqdim olunub. "Mədəni irsimizə ictimai münasibət" adlı videorolik hazırlanıb. Və, nəhayət, araşdırmaların yekunları aidiyyatı bölgənin iri şəhərlərində keçirilən müzakirələrdə ictimaiyyətin diqqətinə çatdırılıb.

Düşünürük ki, layihə çərçivəsində görülən işlər və əldə olunan nəticələr Mədəniyyət və Turizm Nazirliyinin müvafiq şöbələri, regional bölmələri, AMEA-nın müvafiq institutları, bütövlükdəalimlər, doktorantlar, magistrlər, tələbələr, yerli sakinlər, KİV-lər, yerli və beynəlxalq mədəni irs tədqiqatçıları və mədəniyyətşünaslar üçün faydalı olacaqdır. Deyilənlərə onu da əlavə edək ki, layihə çərçivəsində araşdırmalar Ağsu, Gəncə, Qazax, Şamaxı, İsmayıllı və Şəmkir rayonlarında aparılıb. Seminarlar isə, Gəncə və Şamaxı şəhərlərində təşkil olunub.

Layihə çərçivəsində araşdırılan 6 abidədən biri Sarıtəpə qədim yaşayış məskənidir.

Məlumat üçün bildirək ki, Sarıtəpə qədim yaşayış məskəni Qazax şəhərinin qərb qurtaracağında yerləşir. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, yaşayış yeri hələ tunc dövrünün sonu, dəmir dövrünün əvvəllərində meydana gəlmiş və e.ə. I minilliyin son rübünədək orada yaşayış davam etmişdir.

Sarıtəpə abidəsi 100 metr diametri və 10 metr hündürlüyü olan möhtəşəm təpədən ibarətdir. 1956-1958 illərdə orada Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun əməkdaşları tərəfindən tədqiqat işləri aparılmışdır.

Görkəmli arxeoloq İdeal Nərimanovun rəhbərliyi ilə aparılmış arxeoloji qazıntılar zamanı Sarıtəpədə təsərrüfat və dini xarakterli binalar aşkara çıxarılmışdır. Müəyyən olunmuşdur ki, bu abidələr öz xarakteri baxımından hansısa bir ailə və ya kiçik bir kollektivə deyil, geniş ictimaiyyətə məxsus olmuşdur. Alimlərin əksəriyyəti Sarıtəpəni böyük tayfa ittifaqlarından birinin mərkəzi hesab edirlər. Orada tapılan iki ədəd sütun altlıqları bütün Qafqaz üçün unikal tapıntı sayıla bilər. Onlar bir çox əlamətlərinə görə qədim İranın Suz və Persopol şəhərlərindəki memarlıq abidələrinə oxşardır. Bu isə sübut edir ki,

QAZAX

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

QAZAX

Sarıtəpədə üzə çıxarılan sütun altlıqları Yaxın Şərq analoqlarına uyğun olaraq e.ə. V-IV yüzilliklərə aiddir.

Lakin apardığımız monitorinq və sorğular zamanı məlum oldu ki, hazırda abidə qorunmur, abidənin qorunması haqqında heç bir göstərici yoxdur və bu səbəbdən də acınacaqlı vəziyyətdədir. Məlumat üçün bildirək ki, layihə çərçivəsində apardığımız sorğularda əsasən yerli mədəniyyət və turizm şöbələrinin əməkdaşları, bələdiyyə üzvləri, muzey işçiləri, müəllimlər, məktəblilər, taksi sürücüləri və abidəyə yaxın ərazidə yaşayan yerli sakinlər iştirak ediblər.

Sorğunun nəticələri göstərdi ki, abidənin adı ilə bağlı fikir müxtəlifliyi yoxdur. Belə ki, sorğuda iştirak edən 10 nəfərdən 9-u Qazax rayonunda yerləşən abidəni Sarıtpə kimi tanıdığını bildirib. 1 nəfər isə bilmədiyini qeyd edib. Sorğuda iştirak edənlərdən 6 nəfəri orada hündür sarı rəngli təpə olduğuna görə abidənin belə adlandırdığını qeyd edib. 3 nəfər təpənin adıyla bağlı heç nə bilmədiyini, 1 nəfər isə onun içərisindən sarı rəngli əşyalar tapıldığına görə belə adlandırıldığını bildirib.

Sorğuda iştirak edənlərin 7 nəfəri abidənin turistlər tərəfindən ziyarət olunmadığını, 2 nəfəri turistlərin abidəni ziyarət etdiyini görmədiyini, 1 nəfər isə heç nədən xəbərinin olmadığını bildirib.

Rəyi soruşulanlardan 6 nəfəri abidənin qorunmadığını, 1 nəfər qorunduğunu, 1 nəfər qorunması ilə bağlı məlumatlı olmadığını, 2 nəfər isə onun özəlləşdirildiyini qeyd edib.

Sorğuya cəlb olunanlardan 8 nəfəri abidənin tanınması üçün onun təbliğ olunmasına ehtiyac olduğunu deyib. Bildiriblər ki, Sarıtəpə abidəsinin öyrənilməsi Azərbaycan tarixini öyrənmək baxımından çox əhəmiyyətli ola bilər. 1 nəfər bu bölgədə yaşayan insanlardan məlumat toplamağın əhəmiyyətli olduğunu, 1 nəfər isə abidə dağıdıldığı üçün onu öyrənməyin heç bir əhəmiyyətinin olmadığını qeyd edib.

Abidə haqqında məlumat o qədər azdır ki, rəyi soruşulanlardan 7 nəfəri orada qorunmalı heç nə olmadığını deyib, 2 nəfər fikir bildirməyib, 2 nəfər isə təpənin özəlləşdirildiyini qeyd edib.

Monitorinq qrupunun üz tutduğu növbəti abidə Orta əsr Şəmkir şəhəri olub.

ŞƏMKİR

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

Orta əsr müəllifləri Azərbaycanın abad və nemətlərlə zəngin şəhərləri sırasında Şəmkirin də adını çəkirlər.

Məlumat üçün bildirək ki, orta əsr Şəmkir şəhərinin xarabalıqları Şəmkirçayın sol sahilində, Azərbaycan Respublikasının Şəmkir rayonunun Muxtariyyə kəndinin şimalında yerləşir. Abidənin təsviri onun orta əsr düzən şəhərləri üçün səciyyəvi olan bütün əlamətlərə malik olduğunu göstərir. Şəmkirin 2007-ci ildə çəkilmiş topoplanı şəhərin dördbucaqlıya yaxın plan quruluşunu müəyyənləşdirməyə imkan verir. Orta əsr Şəmkir şəhər yerinin öyrənilmə tarixi XIX əsrin ilk rübündən başlansa da, orada geniş miqyaslı arxeoloji qazıntılar yalnız XXI əsrin ilk onilliyinə təsadüf edib.

Regionların İnkişafı İctimai Birliyinin dəstəyilə 2006-2013-cü illərdə Şəmkir şəhər yerində altı sahədə genişmiqyaslı arxeoloji qazıntılar aparılmışdır.

Xatırladaq ki, hazırda da orada arxeoloji tədqiqatlar davam etdirilməkdədir.

Bütün bunlara baxmayaraq layihə çərçivəsində apardığımız sorğu zamanı əhalinin abidə haqqında müxtəlif və həm də ziddiyyətli məlumatlara malik olduğu aşkarlandı. Belə ki, sorğuların nəticələri göstərir ki, əhali arasında "Şəmkir" toponiminin izahı ilə bağlı fikir müxtəlifliyi var. Belə ki, sorğuda iştirak edən 12 nəfərdən 6 nəfəri onu Şəmkir qalası, 5 nəfəri Orta əsr Şəmkir şəhər yeri, 1 nəfər isə Nadirşah qalası kimi tanıdığını bildirib. Onlardan 8-i bu adı heç nə ilə əsaslandıra bilməyib, 3 nəfər Şəmkirdə yerləşdiyi üçün belə adlandırıldığını, 1 nəfər isə "Şam" və "Kür" sözlərindən əmələ gəldiyini düşündüyünü qeyd edib.

Rəyi soruşulanlardan 4 nəfəri abidənin xronoloji cəhətdən orta əsrlərə, 1 nəfər VII əsrə, 3 nəfər IV-VI əsrlərə, 1 nəfər IX-XII əsrlərə, 1 nəfər isə XV-XVI əsrlərə aid edildiyini deyib. 2 nəfər isə Şəmkir abidəsinin tarixi haqqında dəqiq məlumatının olmadığını qeyd edib. Sorğuda iştirak edənlərdən 7 nəfəri abidədə mütəmadi olduğunu, 3 nəfəri 1 il əvvəl olduğunu, 2 nəfəri heç olmadığını deyib.

Sorğuda iştirak edənlərin hamısı turistlərin abidəni tez-tez ziyarət etdiyini bildiriblər və abidənin qədimliyi, memarlıq xüsusiyyətləri,

orada aparılan qazıntılar və aşkar olunan tapıntıların turistlər üçün cəlbedici olduğunu deyiblər.

Rəyi soruşulanlardan 11 nəfəri abidənin yaxşı qorunduğunu və dövlət tərəfindən ora diqqət ayrıldığını qeyd edib. Sorğuda iştirak edənlərdən yalnız 1 nəfəri abidənin yaxşı qorunmadığını düşünür. Abidəyə gedən yola gəlincə, sorğuya qatılanlardan 7-si onu bərbad, 5-i isə normal hesab edir.

12 nəfərin hamısı abidənin tanınması üçün onun təbliğ olunmasına ehtiyac olduğunu deyib və bildiriblər ki, bu abidənin öyrənilməsi yalnız Azərbaycan tarixini deyil, ümumiyyətlə, müsəlman tarixini və Şərq tarixini öyrənməkdə də əhəmiyyətli ola bilər.

Rəyi soruşulanlardan 10 nəfəri abidənin bərpa olunması ilə bağlı heç bir problem olmadığını deyib. 1 nəfər məlumatsız olduğunu bildirib. 1 nəfər isə abidənin bərpası üçün vəsaitin azlığını vurğulayıb.

Rəyi soruşulanlardan 11 nəfəri məktəblilərin və gənclərin abidəyə yüksək maraq göstərdiyini, onu tez-tez ziyarət etdiyini deyib. 1 nəfər isə, bunun əksini düşündüyünü bildirib.

Sorğuda iştirak edənlərin hamısı hesab edir ki, abidənin turizm marşrutlarına daxil edilməsi həm bölgənin inkişafına, həm də yerli sakinlərin yaşayış səviyyəsinə müsbət təsir göstərər.

Layihə çərçivəsində Orta əsr Gəncə şəhərində də monitorinq aparılıb. Kiçik Qafqaz dağlarının şimal ətəklərində, Kür çayının sağ qolu olan Gəncə çayının hər iki sahilində yerləşən Gəncə Azərbaycanın ən qədim şəhərlərindəndir. Bəzi alimlər şəhərin yaranmasını e.ə.VII əsr, əksəriyyəti isə orta əsrlərin başlanğıcına aid edirlər.

Son vaxtlar isə, Gəncənin 4 min illik tarixi olduğu barədə müzakirələr getməkdədir. Əvvəllər Gəncə şəhər icra hakimiyyəti bir neçə dəfə şəhərin 2000 illiyi ilə bağlı yubiley tədbirləri keçirib. Hazırda isə, şəhərin 4000 illiyini qeyd etməyə hazırlıq gedir. Əlbəttə, Gəncənin yaşı mübahisəli olsa da, onun əsrlər boyu bütövlükdə ölkənin çox mühüm sosial-iqtisadi və mədəniyyət mərkəzi olduğu şübhəsizdir. 730-cu ildə ərəb-xəzər döyüşlərində xəzərlərin keçdiyi şəhərlər içərisində Gəncənin də adı çəkilir.

Orta əsr Gəncə şəhərində kompleks arxeoloji tədqiqatlar Nizami

GƏNCƏ

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT və TURİZM NAZİRLİYİ
GƏNCƏ DÖVLƏT TARİX-MƏDƏNİYYƏT QORUĞU
Azərbaycan SSR Nazirlər Sovetinin 18 aprel
1988-ci il tarixli 136 № li qərarına əsasən Qədim Gəncənin
ərazisi (1482ha) "Qoruq" elan olunmuşdur.
Qoruğun ərazisi Dövlət tərəfindən qorunur.
Xahiş olunur ərazidə təmizliyə riayət edəsiniz.
Zibil tökmək qəti qadağandır..!
Həmin şəxslər inzibati qaydada cəzalandırılacaqdır..!

GƏNCƏ

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

Gəncəvinin anadan olmasının 800 illiyi ilə əlaqədar olaraq 1938-1940-cı illərdə Azərbaycan Dövlət Tarix Muzeyi və Tarix İnstitutunun birgə ekspedisiyası tərəfindən aparılmışdır. İshaq Cəfərzadə və Vadim Leviatovun rəhbərliyi ilə Qədim Gəncə ekspedisiyası adı ilə aparılan genişmiqyaslı tədqiqatların nəticəsində minlərlə maddi-mədəniyyət nümunəsi aşkar olunmuş, hal-hazırda Milli Azərbaycan Tarixi Muzeyi, Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Gəncə Tarix və Diyarşünaslıq Muzeyində qorunur və nümayiş olunur. Qazıntılar sonralar fasilələrlə davam etdirilsə də, hal-hazırda tədqiqat aparılan sahələr baxımsız və tonlarla zibil yığınının altındadır.

Tədqiqat qrupunun şəhər yerində rastlaşdığı kimi qədim tarixə malik Gəncə şəhəri abidə olaraq ona layiq səviyyədə qorunmur. Gəncə sakinlərinin də doğma şəhərləri haqqında məlumatı azdır. Onların arasında apardığımız sorğuda yerli mədəniyyət və turizm şöbələrinin əməkdaşları, bələdiyyə üzvləri, muzey işçiləri, müəllimlər, məktəblilər, tələbələr, taksi sürücüləri, abidə ətrafında yaşayan yerli sakinlər iştirak ediblər.

Sorğunun nəticələri göstərdi ki, hətta abidənin adı ilə bağlı da sakinlər arasında fikir müxtəlifliyi var. Belə ki, sorğuda iştirak edən 10 nəfərdən 5 nəfəri onu Gəncə qalası, 4 nəfəri Qədim Gəncə şəhər yeri, 1 nəfər isə, Orta əsr Gəncə şəhəri kimi tanıdığını bildirib. Onlardan 3-ü ad haqqında heç bir rəy bildirməyib, 1-i orta əsrə aid olduğunu, 1 nəfər Gəncə şəhərinin adı ilə bağlı olduğunu, 1 nəfər Gəncəni yadellilərdən qoruduğu üçün, 3 nəfər Qədim Gəncə orada yerləşdiyi üçün belə adlandığını qeyd edib.

Rəyi soruşulanlardan 6 nəfəri abidənin XI-XII əsrlərə, 1 nəfər X-XII əsrlərə aid olduğunu, 1 nəfər ən azı 2500 yaşı olduğunu, 2 nəfər isə, abidənin tarixi haqqında dəqiq məlumatı olmadığını qeyd edib.

Onlardan 1 nəfəri abidədə mütəmadi olduğunu, 3 nəfəri 2013-cu ilin mart ayında olduğunu, 1 nəfər 6 ay əvvəl olduğunu, 2 nəfər nə vaxt olduğunu xatırlamadığını, 1 nəfəri 1981-ci ildə olduğunu, 2 nəfəri isə heç olmadığını deyib.

Sorğuda iştirak edənlərin bir qismi əksər suallara “bilmirəm” deyə cavab verib.

İSMAYILLI

„CAVANŞİR QALASI"
TARİXİ ABİDƏ
DÖVLƏT TƏRƏFİNDƏN
QORUNUR.

„CAVANŞİR QALASI"
TARİXİ ABİDƏ
DÖVLƏT TƏRƏFİNDƏN
QORUNUR.

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

3 nəfər hesab edir ki, abidənin öyrənilməsi dövlət səviyyəsinə çıxarılmalıdır, 2 nəfər vəsait problemi olduğunu, 1 nəfər bu işlə məşğul olunmadığını, 1 nəfər maraqlanmadığını, 1 nəfər yaşayış məntəqələri olduğuna görə tədqiqat aparılmadığını, 1 nəfər informasiyanın az olduğunu, 1 nəfər isə, məlumatlı olmadığını qeyd edib.

Rəyi soruşulanlardan 7 nəfəri məktəbli-gənclərin abidəni tanımadıqlarını, 1 nəfər dərsliklərə salınsa marağın ola biləcəyini, 2 nəfər isə marağın az olduğunu qeyd edib.

"Siz özünüz bu abidənin tanınması və qorunması üçün nə edə bilərsiniz", sualına isə, 8 nəfər təbliğat apara bilərəm, məlumat verə bilərəm deyə, cavab verib. 1 nəfər abidənin qorunması və tanınması üçün hesab açılarsa kömək edə biləcəyini bildirib, 1 nəfər isə heç nə edə bilməyəcəyini qeyd edib.

Layihə qrupunun üz tutduğu növbəti abidə Cavanşir qalası olub. Cavanşir qalası - İsmayıllı rayonu ərazisində Talıstan kəndi yaxınlığında yerləşir. Qafqaz Albaniyasında Mehranilər sülaləsinin hakimiyyəti dövründə inşa edilmiş bu qala hökmdar Cavanşirin adını daşıyır. Məlumdur ki, Albaniya tarixinin son dövrləri, onun əsas vilayətlərindən olan Girdiman vilayəti və tanınmış sərkərdəsi Cavanşirin adı ilə bağlıdır. 642-681-ci illərdə Albaniya hökmdarı olmuş tədbirli dövlət xadimi Cavanşir diplomatik və sərkərdəlik bacarığı ilə dövlətin müstəqilliyini qoruyub saxlamışdır. Ərəb, Sasani, Xəzər, Bizans kimi güclü dövlətlərin hücum təhlükəsi qarşısında duran Cavanşir diplomatik bacarığı sayəsində siyasi gedişlər etməklə yanaşı, müdafiə tədbirləri görməklə də Albaniyanın müstəqilliyini qoruyub saxlamışdır. Qalanın inzibati mərkəz kimi də istifadə olunduğu güman edilir.

Qala İsmayıllı rayonunun Talıstan kəndindən 4 km şimalda, Ağ çayın sağ sahilində yerləşir. Qala əsas hissə və "içqala"dan ibarətdir. İç qala qalanın şimal hissəsindədir. İç qalanın divarları daha çox dağıntıya məruz qalmışdır. Bir çox yerlərdə onun yalnız bünövrəsi qalmışdır. Qalaya getmək üçün Talıstan kəndinə qədər avtomobillə, kənddən qalaya qədər olan 4 km məsafəni isə piyada və ya atla qət etmək lazımdır. Yaz-yay mövsümündə isə qalanın ətəyinədək maşınla getmək mümkündür.

Mütəxəssislərin fikrincə, Cavanşir qalası respublika səviyyəsində diqqət mərkəzində saxlanılan tarixi abidələrimizdən olmağa layiqdir. Amma təəssüf ki, monitorinq zamani məlum oldu ki, burada da vəziyyət ürəkaçan deyil. Abidə elmi baxımdan öyrənilməyib, burada arxeoloji tədqiqatlar aparılmayıb, turizm marşrutlarına daxil edilməyib. İctimaiyyətin nümayəndələri onun haqqında kifayət qədər məlumatlı deyillər. Heç zaman bərpa olunmaması son illərdə leysan yağışların yağması nəticəsində qala divarlarının uçmasına şərait yaratmışdır.

Sorğunun nəticələri göstərib ki, abidənin adı ilə bağlı fikir müxtəlifliyi yoxdur. Belə ki, sorğuda iştirak edən 11 nəfərin hamısı Talıstan kəndi ərazisində yerləşən abidəni Cavanşir qalası kimi tanıdığını bildirib. Sorğuda iştirak edənlərin hamısı abidənin Girdiman (Albaniya) dövlətinin hökmdarı Cavanşirin adı ilə əlaqələndiriblər. Rəyi soruşulanlardan 7 nəfəri abidənin VI-VII əsrlərə, 4 nəfəri VII əsrə aid edildiyini deyib.

Onlardan 4 nəfəri abidədə iki il əvvəl olduğunu, 2 nəfəri 1 il əvvəl olduğunu, 3 nəfəri 1 ay əvvəl olduğunu, 1 nəfəri 2 ay əvvəl olduğunu, 1 nəfəri isə orada mütamadi olduğunu deyib. Sorğuda iştirak edənlərin 6 nəfəri abidəninin turistlər tərəfindən ziyarət olunduğunu, 2 nəfəri turistlərin abidəni tez-tez ziyarət etdiyini, 1 nəfəri hərdənbir ziyarətçilərin gəldiyini, 1 nəfəri bəzən yerli turistlərin gəldiyini, 1 nəfəri isə son illərdə abidəyə gedən yolun və onun ətrafındakı şəraitin əlverişsiz olmasını səbəb göstərərək turistlərin günü-gündən sayının azaldığını qeyd edib.

Sorğuda iştirak edənlərin hamısı abidənin qədimliyinin, memarlıq xüsusiyyətlərinin, tikinti texnologiyası və üslubunun, strateji mövqeyinin və ətrafındakı təbii mənzərənin turistlər üçün cəlbedici olduğunu deyiblər. Rəyi soruşulanlardan 3 nəfəri abidənin dövlət tərəfindən qorunduğunu, Mədəniyyət və Turizm Nazirliyinin nəzarətində olduğunu, xüsusi mühafizəçisinin olduğunu, 4 nəfəri orta səviyyədə qorunduğunu, ancaq bunun da yetərli olmadığını, 1 nəfəri abidənin qorunmasının qənaətbəxş olmadığını qeyd edib. 3 nəfər abidənin qorunması məsələsinə münasibət bildirməmişdir.

Sorğu iştirakçıları abidənin daha da yaxşı tanınması üçün buranın dövlət səviyyəsində diqqət mərkəzinə alınmasını, tədqiqat işlərinin

aparılmasını, reklam roliklərinin, xüsusi televizya verilişlərinin çəkilməsini, xüsusi bukletlərin hazırlanmasını və s. təbliğat işlərinin, bərpa işləri və konservasiyasının aparılmasını məqsədəuyğun hesab etmişlər. Abidəyə gedən yola gəlincə, sorğuya qatılanlardan 4-i onu bərbad, 3-i orta səviyyədə olduğunu, 4-i normal hesab edir. Eyni zamanda iştirakçılardan 3 nəfəri abidəyə gedən yolun tezliklə təmir olunmasını arzu edir.

Sorğuda iştirak edən 11 nəfərin hamısı abidənin tanınması üçün onun təbliğ olunmasına ehtiyac olduğunu deyiblər və bildiriblər ki, bu abidənin öyrənilməsi Azərbaycan tarixini, xüsusən də albanların, Albaniya dövlətinin tarixini, onun ən qüdrətli dövlət başçısı olan Cavanşirin şəxsiyyətini və siyasətini öyrənməkdə əhəmiyyətli ola bilər.

Layihə çərçivəsində Xınıslı yaşayış yerində (Qədim Şamaxı şəhəri) də monitorinq aparılmışdır.

Xınıslı – Azərbaycan Respublikasının Şamaxı rayonu ərazisində antik və ilk orta əsrlər dövrünə aid arxeoloji abidədir. II əsrdə Klavdi Ptolemey şəhərin adını Kamaxeya kimi yad etmiş, onun həmin dövrdə mövcudluğunu tarixə keçirmişdir. Qədim Şamaxı hesab olunan Xınıslıda ötən əsrin 60-70-ci illərində arxeoloq Cabbar Xəlilovun rəhbərliyi ilə aparılan tədqiqatlar nəticəsində oradan qəbirlər, yerli ustaların əməyinin məhsulu sayılan çoxsaylı maddi-mədəniyyət nümunələri, o cümlədən yerli istehsal olan nəfis şüşə məmulatı, qab və bəzək şeyləri də aşkar olunmuşdur. Oradan tapılan ən qiymətli nümunələr içərisində Xınıslı dəfinəsi xüsusi yer tutur.

Sorğunun nəticələri göstərib ki, abidənin adı ilə bağlı fikir müxtəlifliyi var. Belə ki, sorğuda iştirak edən 10 nəfərdən 6 nəfəri onu Qədim Şamaxı, 1 nəfər Gülüstan-Pirdirəki qalası, 1 nəfər Xannəsli, 1 nəfər kiçik Xınıslı kimi, 1 nəfər isə bilmədiyini qeyd edib. Onlardan 2 nəfəri bu adın Şirvanşahlarla bağlı olduğunu, 1 nəfər qədim tarixi olduğu üçün belə adlandığını, 1 nəfər zəlzələdən sonra qoyulan ad olduğunu, 1 nəfər şirlər və şüədalar ölkəsindən gələn ad olduğunu, 1 nəfər köçəri şam tayfaları ilə bağlı olduğunu, 1 nəfər qədim eksponatlar tapıldığına görə belə adlandığını, 1 nəfər orada xanlar yaşadığından belə adlandığını, 1 nəfər ərazisi və əhalisi az olduğuna görə, 1 nəfər isə bilmədiyini qeyd edib.

Rəyi soruşulanlardan 3 nəfəri abidənin hansı dövrə aid olduğunu bilmədiyini, 1 nəfər XX əsrə, 2 nəfər XIV – XVI əsrə, 1 nəfər IV-V əsrə, 1 nəfər qədim dövrə, 1 nəfər VIII-IX əsrə, 1 nəfər isə Şamaxının əvvəl burada yerləşdiyini, sonra Cabanı kəndinə, sonra Ağsuya, daha sonra isə Fit dağı deyilən yerə köçürüldüyünü yazıb. Onlardan 3 nəfəri abidədə mütəmadi olduğunu, 1 nəfəri 2006-cı ildə olduğunu, 1 nəfəri heç olmadığını, 1 nəfəri 2010-cu ildə olduğunu, 1 nəfəri 9 ay öncə olduğunu, 1 nəfəri 2 ay öncə olduğunu, 2 nəfəri isə sorğu keçrilən günü olduğunu deyib.

Rəyi soruşulanlardan 6 nəfəri abidənin qorunmadığını, 1 nəfər yaxşı qorunmadığını, 2 nəfər sadəcə insanların nəzarət etdiyini, 1 nəfər bələdiyyə tərəfindən nəzarət edildiyini, amma qoruqçusunun olmadığını qeyd edib. Abidəyə gedən yola gəlincə, sorğuya qatılanlardan 8-i onu bərbad vəziyyətdə olduğunu, 2 nəfər isə normal, rahat olduğunu hesab edir.

Sorğuda iştirak edənlərin hamısı hesab edir ki, abidənin turizm marşrutlarına daxil edilməsi həm bölgənin inkişafına, həm də yerli sakinlərin yaşayış səviyyəsinə müsbət təsir göstərər.

Rəyi soruşulanlardan 3 nəfəri məktəblilərin, gənclərin abidəyə laqeyid yanaşdıqlarını, 2 nəfər maraq göstərilmədiyini, 1 nəfər məlumatlı olmadığını, 1 nəfər normal maraq göstərildiyini, 2 nəfər məktəblilərin abidə haqqında bilmədiklərini, 1 nəfər isə heç kimin gəlmədiyini bildirib.

Siz özünüz bu abidənin tanınması və qorunması üçün nə edə bilərsiniz, sualına isə, 1 nəfər bilmirəm, 2 nəfər təbliğat apara bilərəm deyə, cavab verib. 4 nəfər əlimdən gələni edərəm deyə qeyd edib. 1 nəfər musiqi həsr edə biləcəyini, 1 nəfər bərpa olunarsa materiallar toplayaraq kömək edə biləcəyini, 1 nəfər isə 2004-cü ildə həyətdə quyu qazarkən saxsı küplər tapdığını və məktəbə hədiyyə etdiyini qeyd edib.

Layihə çərçivəsində görülən işlər üzə çıxardı ki, bu abidə haqqında da məlumat azdır. Yerli əhali, ümumiyyətlə abidəni tanımır. Abidənin yerləşdiyi ərazi ev tikmək üçün sakinlər arasında bölünüb. Bəzi yerlər məişət tullantıları ilə zibillənib və s. Qorunması haqqında heç bir göstərici nişan yoxdur.

ŞAMAXI

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

ŞAMAXI

Monitorinqin növbəti məntəqəsi Orta əsr Ağsu şəhəri oldu.

Ağsu şəhəri XVIII əsrdə əhalisinin sayına görə Azərbaycanın ən böyük şəhəri idi. 1735-ci ilin mayında Nadir şah tərəfindən Ağsu kəndi yaxınlığında tikdirilən qala uzun müddət bu bölgədə ən əhəmiyyətli iqamətgah olmuşdur. Nadir şahın bölgəyə təyin etdiyi hakimlər-Şirvan xanları bu qalada otururdular. Ağsu qalası Nadir şaha qarşı Şirvan zadəganlarının üsyanlarının mərkəzi də olmuşdur. Bu qalaya Şəkili Hacı Çələbi xan və Məhəmmədhəsən xan, Qubalı Hüseynəli xan, Fətəli xan və Şeyxəli xan, Ağa Məhəmməd şahın sərdarları Mustafa xan Dəvəli və Əliqulu xan, rus sərkərdəsi qraf Valeryan Zubov, Naibüssəltənə Abbas Mirzə hücum etmiş, mühasirədə saxlamış, bəziləri almış, bəziləri isə uğur əldə edə bilməyərək kor-peşman geri qayıtmışlar. XVIII əsrin məşhur səyyahları Samuel Qmelin, Biberşteyn, Bronevski və başqaları bu qala haqqında yazmışlar. Ağsuda iki dəfə taun xəstəliyi yayılmış, xeyli insan bundan vəfat etmişdir. Şirvan xanları dövründə Ağsuda sənətkarlıq, ticarət, mədəniyyət xeyli inkişaf etmişdir.

2010-cu ilin mart ayından etibarən MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin təşəbbüsü və ağsulu ziyalıların yaxından dəstəyi ilə "Orta əsr Ağsu şəhəri" Arxeoloji Turizm Kompleksi layihəsinin həyata keçirilməsinə başlanmışdır.

Məqsəd Azərbaycanın turizm marşurutlarından kənarda qalmış Ağsu rayonunun tarixi abidələrini tədqiq etmək və nümayişə hazır vəziyyətə gətirməklə turistlərin diqqətini bu bölgəyə çəkmək idi. "Orta əsr Ağsu şəhəri" Arxeoloji Turizm Kompleksi layihəsi çərçivəsində AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Milli Azərbaycan Tarixi Muzeyinin birgə Ağsu arxeoloji ekspedisiyası orta əsr Ağsu şəhərində tədqiqat aparmış və burada müasir turizm kompleksi yaradılmışdır.

Aparılan sorğuda da bu abidənin kifayət qədər tanındığının və əhalinin məlumatlı olduğunun şahidi olduq. Sorğuda iştirak edənlər abidənin tarixinin, yerləşdiyi yerin, şəhərdə yaşayanların həyat tərzininin və məişətinin öyrənilməsinin, şəhərin ümumi planının, istifadə olunan tikinti materiallarının, memarlıq nümunələrinin, arxeoloji qazıntılarla yerindəcə tanış olmaq imkanlarının, aşkar olunan tapıntıların, muzeydə əks olunan eksponatların turistlər üçün cəlbedici olduğunu deyiblər.

Rəyi soruşulanlardan 9 nəfəri abidənin yüksək səviyyədə qorunduğunu, xüsusi mühafizəçisinin olduğunu, xüsusi müşahidə kameralarının quraşdırıldığını qeyd edib. 1 nəfər abidənin qorunması üçün əlavə olaraq abidə ətrafının metal torlarla əhatə olumasını təklif edib.

Sorğu iştirakçıları abidənin daha da yaxşı tanınması üçün arxeoloji tədqiqatların, təbliğat işlərinin davam etdirilməsini, dünya televiziya kanalları vasitəsilə tanıdılmasını, bukletlərin hazırlanmasını, dərslik və dərs vəsaitlərində geniş məlumatların yerləşdirilməsini məqsədəuyğun hesab etmişlər.

Abidəyə gedən yola gəlincə, sorğuya qatılanların hamısı onu yaxşı vəziyyətdə olduğunu hesab edir. Bir nəfər abidə ətrafında və onun yolu boyunca ağacların əkilməsini təklif edir.

10 nəfərin hamısı bu abidənin öyrənilməsi Azərbaycan tarixinin, xüsusən də orta əsrlər dövrünün, Nadir şah dövrünün, Şirvan xanlığınının tarixinin yazılmasında, bu dövrün memarlığının araşdırılmasında əhəmiyyətli ola bilər.

Ümid edirik ki, layihə mədəni irsimizə ictimai münasibət sahəsindəki problemləri ilk dəfə bir ictimai birliyin səyləri nəticəsində üzə çıxaracaq, mütəxəssis araşdırmaları, təklif və tövsiyyələri, keçirilən seminarlar, çəkilən film vasitəsilə şəhər və kənd sakinləri, abidələrə yaxın ərazilərdə yaşayan insanlar maarifləndiriləcək, beləliklə də, mədəni irsimizin mühafizəsi və təbliği sahəsində görülən işlərə əlavə stimul olacaqdır.

AĞSU

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

AĞSU

Azərbaycan Respublikasının
Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına
Dövlət Dəstəyi Şurası

ORTA ƏSR AĞSU ŞƏHƏRİ
ARXEOLOJİ TURİZM KOMPLEKSİ
MEDIEVAL AGSU TOWN
ARCHAEOLOGICAL TOURISM COMPLEX

Monitorinqin nəticələri ilə bağlı təklif və tövsiyələr:

1. Layihə çərçivəsində respublikanın bir neçə şəhər və rayonunda keçirilən görüşlər, aparılan sorğu və araşdırmalar göstərdi ki, analoji tədbirlərin ən azı yerlərdə vəziyyəti öyrənmək naminə digər şəhər və rayonlarda da keçrilməsi olduqca vacibdir.
2. Monitorinqlərin nəticələri göstərir ki, əfsuslar olsun ki, əksər yerlərdə tarix və mədəniyyət abidələrinin mühafizəsi arzu olunan səviyyədə deyil. Bu səbəbdən də bir çox abidələr təbiət təsirləri və antropogen təsirlər nəticəsində davamlı olaraq aşınma, dağılma və beləliklə də, nəticə etibarı ilə məhv olma taleyi yaşamaqdadır. Demək olar ki, əksər yerlərdə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının qanununundan irəli gələn vəzifələrə biganə münasibət var. Bunun üçün aidiyyatı yerli qurumlar, qeyri-hökümət təşkilatları, mədəni-maarif müəsissələri və məktəblər səviyyəsində ardıcıl olaraq zəruri maarifləndirici tədbirlər görülməlidir. Yaxşı olar ki, orta məktəblərdə həmin qanundan irəli gələn məsələlər hanısa formada şagirdlərə öyrədilsin.
3. Mədəni irs nümunələri olan tarix və mədəniyyət abidələrinin təbliği də arzu olunan vəziyyətdə deyil. Bunun üçün hər şeydən öncə abidələrə gedən yollar qaydaya salınmalı, zəruri yerlərdə göstərici nişanlar qoyulmalı, ən azı bir-iki yerdə abidənin pasportu və dövlət tərəfindən mühafizə olunduğunu bildirən lövhələr vurulmalıdır. Mətbuat, televizya və elektron resusrlardan istifadə etməklə davamlı sürətdə maarifçilik işi aparılmalıdır. Ayrı-ayrı abidələrlə bağlı bukletlərin və ya açıqcaların nəşri də ümumi işin xeyrinə olardı.
4. Tarix və mədəniyyət abidələrinin tədqiqi bu gün hər zaman olduğundan daha aktualdır. Əfsuslar olsun ki, bir çox abidələr hələ də tədqiqatçıların yolunu gözləyir. Məqsədəuyğun olardı ki, Akademiyada elmi-tədqiqat planları tərtib olunarkən bu amil də nəzərə alınsın. Məsələn, elə abidələr var ki, artıq neçə onillərdir ki,

tədqiq olunur. Lakin elə abidə də vardır ki, oraya arxeoloq ayağı dəyməyib. Fikrimizcə, bu və ya digər tarix və mədəniyyət abidəsi tədqiqata cəlb olunarkən onun tariximiz üçün əhəmiyyət dərəcəsi də nəzərə alınmalıdır. Bundan əlavə, torpaq altında elə abidələrimiz vardır ki, onlar bundan sonra hələ yüz illər boyu tədqiqata cəlb olunmasa belə, onların dağılmaq və ya aşınmaq təhlükəsi yoxdur. Lakin dağların yamacında, çay kənarlarında, intensiv məskunlaşma rayonlarında, tikinti zonalarında olan abidələr isə hər an yox ola bilər. Ona görə də birinci növbədə məhz bu cür təhlükə gözləyən abidələrin elmi cəhətdən öyrənilməsi olduqca mühüm şərtdir.

5. Bütün abidələrin konservasiyaya ehtiyacı var. Əfsuslar olsun ki, bu sahədə də vəziyyət ürəkaçan deyil. Monitorinqlər nəticəsində bir daha müəyyən olundu ki, bu sahəyə xüsusi diqqət ayırmaq gərəkdir.
6. Könüllülük institutu bu sahədə də inkişaf etdirilməli, ictimai birliklər, dərnəklər, klublarla müvafiq dövlət müəssisələri arasında əlaqələr genişlənməlidir. Könüllülərin cəlb olunması ilə abidələrin, ora gedən yolların otdan təmizlənməsi, zibillənmiş sahələrin zibilinin daşınması, şumlanmış sahələrdə maddi-mədəniyyət nümunələrinin toplanması, sakinlər arasında maraqlı təlim üsulları ilə mədəni irsimizin sevdirilməsi və maarifləndirmə işlərinin aparılması mümkündür.

GƏNCƏ
TƏDBİRİ

GƏNCƏ
TƏDBİRİ

ŞAMAXI
TƏDBİRİ

ŞAMAXI
TƏDBİRİ

TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ TƏBLİĞİ: ARAŞDIRMA, TƏKLİF VƏ TÖVSİYƏLƏR

MİRAS Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin "Azərbaycanda tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği: mövcud vəziyyətin monitorinqi və qarşıda duran vəzifələr" layihəsi çərçivəsində

Fotoqraf: Məmməd Rəhimov

Dizayner: İntiqam Məhəmmədli

Tiraj: 500 ədəd